# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 1-ci səhifədə).

Ötən il sosial infrastrukturun yaradılması ilə bağlı görülən işlərdən danışan cənab İlham Əliyev bu il də sosial sahələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirildiyini, yeni məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, idman qurğuları tikildiyini və əsaslı təmir olunduğunu, sosial infrastrukturun yeniləşdirildiyini və bu prosesin gələn illərdə də davam etdiriləcəyini diqqətə çatdırmışdır.

Cənab İlham Əliyev vətəndaşların dövlət qayğısı ilə əhatəsinin möhkəmləndiriləcəyini, maaş və pensiyaların artırılacağını, məcburi köçkünlər üçün yeni yaşayış evlərinin tikiləcəyini, məktəblərin, uşaq bağçalarının, tibb məntəqələrinin, su, qaz, işıq təchizatının daha da yaxşılaşdırılması istiqamətində digər infrastruktur layihələrin həyata keçiriləcəyini bildirmişdir.

"Azərbaycan o ölkələrdəndir ki, öz daxili imkanlarına söykənir, öz iqtisadi və siyasi inkişafını özü təmin edir" - deyən cənab İlham Əliyev iqtisadiyyatımızın tam şəkildə bazar iqtisadiyyatı prinsipləri üzərində qurulduğunu, hazırda ümumi daxili məhsulun 83 faizinin özəl sektorda formalaşdığını, beynəlxalq mühasibat və beynəlxalq idarəçilik sisteminə keçildiyini diqqətə çatdırmışdır.

İlk dəfə bu il Bakıda keçirilən Dünya İqtisadi Forumu da Azərbaycanda gedən iqtisadi prosesləri təqdir etmiş və yüksək qiymətləndirmişdir. Forum Azərbaycan iqtisadiyyatının MDB məkanında ən rəqabət qabiliyyətli iqtisadiyyat olduğunu qeyd etmişdir.

Regionların sosial-iqtisadi inkişafı ikinci Dövlət Proqramının 2013-cü ilin birinci rübündə də uğurla icra olunduğunu vurğulayan ölkə başçısı, edilmiş əlavələr də əhatə olunmaqla proqramın artıqlaması ilə yerinə yetiriləcəyinə əminliyini və dövlətin əsas kapitalı olan adamların rifahının daha da yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılacağını bildirmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2013-cü ilin birinci rübündə sosial-iqtisadi sahədə görülən işlər Qəbələ rayonunda da uğurla davam etdirilmişdir.

Rayonumuzun ictimai həyatında baş verən əsas əlamətdar hadisə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü ilin fevral ayının 28-də Qəbələyə gəlişidir. Səfər zamanı dövlət başçısı bir çox sosial və iqtisadi xarakterli obyektlərin açılışında iştirak etmiş, inşaası davam edən tikintilərdə işlərin gedişi ilə tanış olmuşdur. Görülmüş işlər barədə fikirlərini bildirməklə bərabər cənab Prezident qarşımıza yeni-yeni vəzifələr qoymuşdur.

Rayon ictimaiyyətinin nümayəndələri ilə keçirilən görüşdə dövlət başçısı demişdir: "Bu gün Qəbələ ölkəmizin mədəniyyət və turizm mərkəzlərindən birinə çevrilmişdir. Bakıdan, digər yerlərdən, digər şəhərlərdən, başqa ölkələrdən buraya gələnlərin sayı getdikcə artır. Turizmin inkişafı gələcəkdə yəqin ki, Qəbələ rayonunun iqtisadi inkişafının müəyyən faizini öz üzərinə götürəcəkdir".

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rayonumuz haqqında söylədiyi bu qürurverici fikirlər hər bir qəbələlidə fərəh hissi yaradır, qurub-yaratmaq əzmini daha da artırır.

**Hörmətli yığıncaq iştirakçıları!**

2013-cü ilin birinci rübü ərzində rayonumuzun iqtisadi sferasında ayrı-ayrı sahələr üzrə 39.616 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 2.200 min manat, yaxud 5,7 faiz çox olmuşdur.





Keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 277 min manat, yaxud 7,4 faiz, kənd təsərrüfatında 353 min manat, yaxud 3,6 faiz, tikintidə 943 min manat, yaxud 5,3 faiz, nəqliyyatda 141 min manat, yaxud 18,5 faiz rabitədə 31 min manat, yaxud 17, 8 faiz, ticarətdə 455 min manat, yaxud 7,4 faiz artmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 402 manat təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 17 manat, yaxud 4,4 faiz çox olmuşdur.

Sənaye mallarının istehsalında və xidmətlərin göstərilməsində özəl sektorun xüsusi çəkisi 72,1 faiz təşkil etmişdir.

Rüb ərzində sənaye müəssisələrində çalışan 742 nəfər işçinin orta aylıq nominal əmək haqqı 344 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 10,6 faiz çox deməkdir.

2003-cü ilin oktyabr ayından 2013-cü ilin aprel ayınadək 11.167 yeni iş yeri açılmışdır. Ondan 9.119-u daimi iş yeridir. Cari ilin birinci rübündə 224 yeni iş yeri açılmışdır ki, həmin iş yerlərinin hamısı daimi iş yeridir.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 21.131 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 18.559 min manat təşkil etmişdir. Ötən illə müqayisədə əsas kapitala yönəlmiş investisiyanın həcmi 2.827 min manat, yaxud 15,4 faiz artmışdır.

Rayonun yerli gəlirləri 2013-cü ilin birinci rübündə 1.912 min manat proqnoza qarşı 2.654,9 min manat (139 faiz) və ya 742,9 min manat çox, o cümlədən öz gəlirləri 1.879,2 min manat proqnoza qarşı 2.628,9 min manat (140 faiz) və ya 749,7 min manat çox, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 1.721,4 min manat və ya dürüstləşdirilmiş proqnoza qarşı 1.600 min manat (93 faiz) və ya 121,4 min manat az, yerli xərcləri dürüstləşdirilmiş 3.600,6 min manat proqnoza qarşı 3.757,5 min manat (104 faiz) və ya 156,9 min manat çox icra olunmuşdur.

Rayonun yerli xərcləri təhsil xərcləri üzrə 351, 5 min manat təyinatdan çox, digər xərc maddələri üzrə 194,7 min manat təyinatdan az icra olunaraq ümumilikdə birinci rüb üzrə 156,8 min manat təyinatdan çox icra olunmuşdur.

Yerli xərclərin 194,7 min manat təyinatdan az icra olunmasının səbəbi müəyyən xərc maddələri üzrə bəzi təşkilatlar tərəfindən müxtəlif xərclər üzrə sifarişlərin yerli xəzinədarlıq orqanına vaxtında təqdim edilməməsi və bəzi xərc maddələri üzrə faktiki icranın tam yerinə yetirilməməsi olmuşdur. Müəyyən edilmiş bölgü üzrə birinci rübdə vəsaitin az proqnozlaşdırılması səbəbindən təhsil xərcləri üzrə əmək haqqı və ona üstəlik ayırmaların mart ayında ödənilməsi ilə bağlı təhsil şöbəsi üzrə 351,5 min manat təyinatdan artıq xərcə yol verilmişdir.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər.

Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətlərlə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Rüb ərzində bütün növ istehlakçı qruplar tərəfindən 21.522,5 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 1.291,4 min manata qarşı 1.034,2 min manat vəsait toplanaraq yığım planı 80,1 faiz yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 34,8 faiz, dövlət müəssisələri üzrə 97,8 faiz, ticarət xidməti üzrə 98,4 faiz, özəl sənaye üzrə 89,6 faiz, əhali qrupu üzrə isə 71,8 faiz olmuşdur. Təbii qaz istehlakçıları tərəfindən 12.321,8 min kub/metr təbii qaz istehlak edilmiş, abonentlərdən 1.232,2 min manata qarşı 982,4 min manat vəsait toplanmışdır. Ümumi yığım 79,7 faiz yerinə yetirilmişdir. Həmin göstərici əhali sektoru üzrə 79,8 faiz, büdcə təşkilatları üzrə 54 faiz, sənaye, kommersiya və digər təşkilatlar üzrə isə 83,5 faiz təşkil etmişdir. Rüb ərzində Qəbələ şəhərində 592 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 9.988-ə çatdırılmışdır.

Rüb ərzində Qəbələ şəhərində 50,2 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmişdir. Göstərilən xidmətə görə vəsait yığımı 83,3 faiz yerinə yetirilmişdir. Bu göstərici əhali sektoru üzrə 88 faiz, büdcə təşkilatları üzrə 90 faiz, kommersiya və digər təşkilatlar üzrə 84,6 faiz təşkil etmişdir.

(Ardı 3-cü səhifədə).